Osman Fermanoğlu

## Payız Etüdləri

Yarpaqlar qoparaq düşür bir ucdan
Ağac duasını unudan kimi;
Boya- başa çatan quşlar o başdan
Ucub yuvasını unudan kimi.

Qulaqlar eşitmir ağız deyəni,
Qarğa sinoptiklər yağış gətirir.
Qolları bağlanır düyün düyənin,
Qurdlar obalara qarğış gətirir.

Əhval tuta bilmir bu dağ o dağdan,
Aralığı kəsir bulud hərami.
Ayrılıq küləyi əsir uzaqdan;--
Seçməyə yüyürür halal, haramı.

Yağışla tikilir yer düymə-düymə,
Daralır çöllərin nəfəs alması.
A kükrəyən  yağıs, daşlara dəymə,
Durnalar çaşaraq yolu azmasın.

Beləcə yerini bərkidir payız
Qırovdan boylanan qışdan xəbərsiz.
Könlünü payıza bağlayan bir qız
Xülyaya çevrilir xəbər-ətərsiz.

Bayatı söyləyir saralan otlar,
Dörd yanda həsrətin qəfəsi qalır.
Bizi yuxulardan soruşan yurdlar
Dil deyir, ayrılıq havası çalır.

Bir payız beləcə keçir omürdən,
Canımız daşıyır ağrı bu payını.
 Payız qınaqlarla əl edir yerdən,
"Çox suçlayırdınız  ilin yayını."